*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 25 avqust 2018-ci il | № 65 (2281) | Qiyməti 25 qəpik

# Möhtəşəm azərbaycançılıq paradı

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək.*



Gün var, gəlişini həsrətlə gözləyirsən...

Gün var, gətirəcəyi sevinci sonrakı günlərin uğurunun başlanğıcı bilirsən, həmin günün saatları, dəqiqələri ömrünə yazılır, o xoş ovqat zaman-zaman yaddaşlarda yaşadılır, yaşayır. Dövlətçiliklə, dövlətlə bağlı olan belə günlərin ovqatı bu gün üçün deyil, sabahlar üçündü. 100 il əvvəlin tarixi günü bu gün o qədər qürurla, o qədər istəklə, o qədər həssaslıqla yaşanıldı ki! 26 iyun günü dövlətçiliyimizin günüdü, dövlətsevərlərin günüdü - Azərbaycanımızın dövlətçilik tarixinin ululuq mərtəbəsində yaşadılan, zamanında tarixin axarını dəyişən, yaşadılmaqla tarixin sonrakı dövrlərinə təsir göstərən gündü...

Silahlı Qüvvələr Günü, Silahlı Qüvvələr gününün mahiyyəti deyir ki, 26 iyun "Mən azərbaycanlıyam" - deyənlərin günüdü.

100 yaşlı ordumuzun bugünkü qüdrətinin, gücünün başlanğıcı 1918-ci ilin 26 iyunuyla bağlıdı. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin, Azərbaycan Ordusu Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun hüquqi varisidi; hər bir vətənsevər "Ordum da var, yurdum da!" - qüruruyla xatırlayır döyüş növbətçiliyi aparanlarımızı, Ali Baş Komandanın əmriylə səngərləri sərhədlərə köçürəcək əsgərlərimizi, hava sərhədlərimizi qoruyanları. Bu gün onların ana südü kimi halalı olan gündü. Soruşsaq da, soruşmasaq da, onların amalının nə olduğunu hamımız bilirik - Ali Baş Komandanın əmri, döyüşlər və Böyük Qələbə!..

26 iyunda Bakıda keçirilən hərbi parad bu amalın paradıydı...

Tariximizin zaman anlamında dünənini unutmuruq, unutmarıq. O tarix tarix yazıbsa, yazılan tarix yazılacaq tarixlərin başlanğıcı olubsa, əbədiyyətəcən unudulmayacaq. 100 il əvvəl yazılan tarix kimi - 100 il əvvəlin 28 mayı kimi, 100 il əvvəlin 26 iyunu kimi. Bu tarixlər Azərbaycan dövlətçiliyinin qürur, sevgi, ehtiram tarixləridi: 26 iyunda Bakıda keçirilən hərbi parad bu qürurun, bu sevginin, bu ehtiramın paradıydı.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə Belarusun Müdafiə nazirinin görüşü keçirilib



Avqustun 23-də Minsk şəhərində Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovla bu ölkənin Müdafiə naziri general-leytenant Andrey Ravkov arasında görüş keçirilib.

Tərəflər regional təhlükəsizlik problemləri, eləcə də maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparıblar.

Görüşdə hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın inkişafının vacibliyi qeyd edilib və onun genişləndirilməsi istiqamətləri müzakirə olunub.

# Azərbaycanla Belarus arasında hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunub



Avqustun 23-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovla Belarus Respublikası Dövlət Hərbi Sənaye Komitəsinin sədri cənab Roman Qolovçenko arasında görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tərəflər ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, xüsusilə hərbi-texniki sahələrdə əməkdaşlığın vəziyyətini müzakirə ediblər.

Daha sonra general-polkovnik Nəcməddin Sadıkov Belarusun hərbi sənaye kompleksinə daxil olan müəssisəni ziyarət edərək oranın rəhbərliyi ilə görüşüb.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyəti bu ölkənin hərbi sənayesinin istehsal etdiyi döyüş texnikaları və hərbi təyinatlı digər vasitələrlə tanış olub, Ordumuzun silah arsenalını gücləndirə biləcək silah və hərbi texnika ilə maraqlanıb.

# Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti "ARMY-2018" beynəlxalq hərbi-texniki sərgisində iştirak edir

*Rusiya Federasiyasında "ARMY-2018" beynəlxalq hərbi-texniki sərgisi və "Milli təhlükəsizlik həftəsi" konfransı keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan nümayəndə heyətinə Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-mayor Fuad Məmmədov rəhbərlik edir.

Tədbirlər avqustun 26-dək davam edəcək.

# Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi belaruslu həmkarı ilə görüşüb

*Belarus Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov bu ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini general-mayor Oleq Belokonev ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Belarus Respublikası Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Baş Qərargah rəisləri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Qonaqları salamlayan general-mayor O.Belokonev vurğulayıb ki, Belarus Azərbaycan ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verir və ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın daha da inkişafı üçün geniş imkanlar mövcuddur.

Belarusa səfərindən məmnunluğunu bildirən general-polkovnik Nəcməddin Sadıkov Azərbaycan-Belarus hərbi münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Belarus arasında hərbi sahədə mövcud əməkdaşlığın və qarşılıqlı inamın güclənməsinə xidmət edən fəaliyyətlər geniş təhlil edilib və dövlətlərimizin regional təhlükəsizliyə verdiyi töhfələr xüsusi vurğulanıb.

# Füzuli və Cəbrayıl rayonlarının işğalı günü ilə bağlı tədbir keçirilib

Ermənistan silahlı birləşmələrinin Füzuli və Cəbrayıl rayonlarını işğal etməsinin 25-ci ildönümü ilə əlaqədar avqustun 20-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində anım tədbiri keçirilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Dövlət Komitəsinin sədri, sədr müavinləri, departament və şöbə rəhbərləri, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin üzvləri iştirak ediblər.

Əvvəlcə torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan ərazilərinin Ermənistanın işğalı altına düşməsinin səbəb və nəticələrindən danışarkən bildirib ki, dövlət müstəqilliyinin bərpasının ilk illərində respublikamızda ordu quruculuğunun ləngidilməsi, vahid komandanlığın formalaşdırılmaması, hərbi-siyasi rəhbərliyin iradəsizliyi xalqımızı ağır bəlalara düçar edib. Məhz buna görə də xaricdən verilən hərbi kömək hesabına Ermənistan öz işğalçılıq planlarını həyata keçirib. 1993-cü il avqustun 23-də Cəbrayılı və Füzulini ələ keçirən ermənilər işğal etdikləri hər bir yaşayış məntəqəsində olduğu kimi, bu rayonlarda da qətl, qarət və dağıntılar törədib, yerli sakinləri doğma torpaqlarından didərgin salıblar. BMT Təhlükəsizlik Şurası işğal edilən Füzuli, Cəbrayıl, Qubadlı və digər rayonlardan erməni silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edən 874 saylı qətnamə qəbul etsə də, bu qətnamə də digərləri kimi icra edilməyib, kağız üzərində qalıb.

Bildirilib ki, ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıdıb müstəqil dövlət quruculuğuna başladıqdan sonra qısa müddətdə səfərbər edilən ordu bölmələrimizin 1993-cü ilin dekabrında həyata keçirdiyi uğurlu hərbi əməliyyat nəticəsində Füzuli rayonunun Horadiz qəsəbəsi və 20 kəndi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilib.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Qarabağda qoşunların təmas xəttində Ermənistanın hərbi təxribatlarının qarşısının qətiyyətlə alınması barədə əmrini yerinə yetirən ordumuzun qəhrəman əsgər və zabitləri 2016-cı ilin aprelində işğalçı qüvvələri Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyindən və ətraf ərazilərdən geri çəkilməyə məcbur ediblər. Nəticədə dinc əhalinin Cocuq Mərcanlı kəndinə qayıdıb öz yurd yerlərində yaşamasına şərait yaranıb və çox qısa bir vaxtda həmin kənd bərpa edilib, müxtəlif bölgələrdə məcburi köçkün kimi müvəqqəti məskunlaşmış sakinlərin buraya köçürülməsinə başlanılıb.

Tədbirdə Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin ərazisi işğal edilmiş rayonlardakı təşkilatlarının rəhbərləri, Füzuli və Cəbrayıl rayonundan olan ziyalılar və keçmiş döyüşçülər çıxış ediblər.

Sonda "Erməni işğalında qalan Cəbrayıl" filmi nümayiş etdirilib.

# Möhtəşəm azərbaycançılıq paradı

(Əvvəli 1-ci səhifədə)

Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Məmməd bəy Sulkeviç, Cəmşid Naxçıvanski, Şeyxzamanov qardaşları, Şıxlinski qardaşları, ... bu günün nurunu, işığını 100 il əvvəl hiss etmişdilər, bu günün qüdrətini, gücünü 100 il əvvəl duymuşdular, Azərbaycan üçün yaşamışdılar, azərbaycançılığı yaşatmaq üçün yaşamışdılar. Yüksələn bayrağımızın yaşarılığı üçün yaşamışdılar; 26 iyunda Bakıda keçirilən hərbi parad bu ünlü sərkərdələrin ruhunun paradıydı...

1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi, Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Hakimiyyət səriştəsizliyi, yerli müdafiə batalyonlarının məhəlli fəaliyyəti, kimlərinsə iradəsinin icraçısı olması müqayisəyəgəlməz itkilərlə nəticələndi. Xalqın təkidli tələbiylə hakimiyyətə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyev ordumuzu nizami ordu kimi formalaşdırdı; 26 iyunda Bakıda keçirilən hərbi parad ulu öndər Heydər Əliyevin ideyalarının paradıydı...



Ərazi bütövlüyümüz uğrunda şəhid olanların hər biri hər birimizin əzizidi. Əzizlərimizin ruhu torpaqlarımız işğaldan azad ediləndə narahatçılıqdan xilas olacaq; 26 iyunda keçirilən hərbi parad şəhidlərimizin - Şikarların, Yusiflərin, Vəzirlərin, Mübarizlərin, Samidlərin, Raqufların, ..., Çingizlərin yaşarı ruhunun paradıydı, şəhid analarına təsəlli paradıydı...

2016-cı ilin aprel zəfəri Azərbaycan Ordusunun qüdrətini, ordu ilə xalqın birliyinin səviyyəsini təsdiqlədi, dərsliklərə salınmalı tarix yazdı. O da təsdiqləndi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan tamamilə azad etməyə qadirdi; 26 iyunda keçirilən hərbi parad bu zəfərin, bu qüdrətin, bu birliyin paradıydı...

26 iyunda keçirilən hərbi paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdi. Bu çıxış mahiyyəti etibarilə dövlətçiliyə sədaqət, orduya inam kimi izlənildi, dinlənildi. 26 iyunda keçirilən hərbi parad ölkə Prezidentinin "Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirdi, bir daha Azərbaycan xalqını əmin etdi ki, ... Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdi və buna hazırdı" - inamının paradıydı...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışında dedi: "2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" - 26 iyunda keçirilən hərbi parad Ali Baş Komandanın dönməz əminliyinin paradıydı...

Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətini görüncə Ulu Öndərin bir kəlamını xatırladım: "Bir millət, iki dövlət". 26 iyunda keçirilən hərbi parad bu kəlamın paradıydı; 100 il əvvəl Qafqaz İslam Ordusu erməni-bolşevik qüvvələrinə qarşı döyüşmüşdü, Bakının azad edilməsində şücaət göstərmişdi. Bu, həmin tarixin unudulmadığının, mənəvi birliyin məfkurə eyniliyinin təsdiqi kimi izlənildi; mənə elə gəldi ki, Qara dənizin də dalğaları Xəzərin dalğaları kimi kükrədi, coşdu, sahilini döyəclədi...

Tribuna önündən Sülhməramlı, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən hərbi qulluqçular keçir. Baxırsan nə göz doyur, nə könül əl çəkir (M.İlqar)...

Tribuna önündən Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin hərbi qulluqçuları keçir. Baxırsan, qətiyyət görürsən, qürur görürsən, döyüş əzmi görürsən, qələbəyə təşnəlik görürsən...

Tribuna önündən zirehli avtomobillərin üzərində quraşdırılmış "SPAYK-LR", silahlanmaya yeni qəbul edilmiş daha güclü "SPAYK-ER" tank əleyhinə idarəolunan raket kompleksləri keçir. Aparıcı onu da qeyd edir ki, bu silahlar vasitəsilə 2016-cı ilin aprel döyüşlərində onlarla düşmən tankı və digər zirehli döyüş texnikası bu komplekslərlə məhv edildi. Baxırsan, eşidirsən, ürəyin dağa dönür. Bu paradı Böyük Qələbənin paradının başlanğıcı bilirsən...



Tribuna önündən Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin zavodlarında istehsal olunmuş mina əleyhinə yüksək müdafiə sistemi ilə təchiz olunmuş "MARAL-1" və "MARAL-2" zirehli avtomobillər keçir. Ürəyindən keçənlər himnimizin sözlərinə sarılır "...Ey qəhrəman övladın şanlı Vətəni!"...

Tribuna önündən yüksək mobillikli "BUK-MB" zenit-raket kompleksi, "S-300 FAVORİT" çoxkanallı universal mobil zenit-raket sistemi, ... keçir. Ürəyindən nələr keçir, nələr, nələr!...

Və bir qədər uzaqlardan gələn səsə sarı boylanır hamı, tər-təmiz, dumduru göy üzündə sevgimizin uçuşları görünür - çoxfunksiyalı hərbi nəqliyyat təyinatlı "Mİ-24 QRİFİN", "Mİ-17-1V" döyüş nəqliyyat, "LAHAT", "SPAYK NLOS" tipli raketlərlə silahlanmış "Mİ-17", "Mİ-35", "Mİ-24" helikopterləri, döyüş təyyarələri. Baxırsan və "Uçun, ey mavi göylərin azərbaycançılıq heyrəti. Uçun, uçuşunuz ürəyimizə yük olan intizara ölüm hökmü olacaq!" - pıçıldayırsan...



... Paradı izləməyə yaşlılar da gəlmişdi, cavanlar, yeniyetmələr, uşaqlar da; hər baxışda qədərsiz sevgi, hər baxışda çırpınan istək, hər baxışda inam, etibar, ehtiram... Atasının çiyinlərində bayraq dalğalandıran körpənin fərəhini bu möhtəşəmliyin göyqurşağı bilən minlərdən biriydim; əsgər və zabitlərin mətin yerişi, döyüş texnikalarının əzəməti bu uşağı ata çiyinlərində bir boy da dikəltmişdi, dalğalandırdığı bayraq bir boy da ucalıqda dalğalanırdı. İmkanım olsaydı, o uşağı bağrıma basardım, atasının çiyinlərini çiyinlərimlə əvəzləyərdim...

Parad başa çatdı...

Paradın davamı izlənilənlərin nəyə söykəndiyinin, nələrlə tamamlandığının görüntüləriydi - Türkiyənin "Solo Türk" və "Türk Ulduzları" aviaqrupuna daxil olan "F-16", "F-5" tipli təyyarələrin nümunəvi uçuşları da eyni sevgilərlə izlənildi. Bu uçuşların möhtəşəmliyi hərbi paradın möhtəşəmliyini möhtəşəmliklə tamamladı...

Azərbaycanda nizami ordu quruculuğu böyük tarixi şəxsiyyət Heydər Əliyevin adıyla bağlıdı. Ordumuzu Ulu Öndər formalaşdırdı, ordumuz Ulu Öndərin sərkərdəliyiylə Horadiz əməliyyatında böyük qələbə qazandı. Bu qələbə həm ordunun gücünü təsdiqlədi, həm də şəxsi heyətin qələbə ruhunu kükrətdi. Ordumuz Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyiylə Lələtəpə, Bayraqtəpə qələbələrini qazandı. Bu parad Azərbaycanda ordu quruculuğunun paradıydı...

Bu möhtəşəm parad şəhid atalarına, şəhid analarına, şəhid balalarına təsəlli paradıydı...

Bu parad dövlətə, dövlətçiliyə sədaqətin paradıydı...

Paradı izləyən uşaqların, yeniyetmələrin, gənclərin Dövlət himnimizi necə həvəslə ifa etdiklərini də gördüm; bu parad Dövlət himnimizin əzəmətinin paradıydı...

Bu möhtəşəm parad azərbaycançılığın paradıydı...

....Böyük Qələbədən sonra keçiriləcək parad daha möhtəşəm olacaq!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Ön xətdən reportaj*

# Vətənə gedən yol səngərdən keçir

*Yollar sonsuzdur, bitib-tükənmir... Getdikcə gedirsən. Yollar da var digər yollara ayrılır, səni gedəcəyin ünvana çatdırmaq üçün. O yollar bizi mənzil başına gec, ya tez çatdırır, məqsədimizə yaxınlaşdırır. Vətənimizin müdafiəsində gecə-gündüz, soyuq-isti bilmədən əzmlə dayanan hərbçilərimizin arzu və istəklərini qələmə almaq üçün sərnişini olduğumuz qatar da bizi məqsədimizə lap yaxınlaşdırır...*



Qatar dəmir yol stansiyasında səhərin ala-toranında dayanır. Mənzil başına tələsənlərin sırasında biz də varıq. Yolumuz zamanında erməni işğalçılarına qarşı sinəsini sipər edən cəngavər oğulların ruhunun qərar tutduğu bir məkanadır. Bu yerlərdə erməni faşistləri ilə mübarizədə Vətən oğulları qeyrət qalası tikib, güclü müdafiə istehkamı yaradıblar. Burada o oğulların torpaq qoxusu ciyərinə çəkilib, yurd sevgisi qəlblərinə hopub. Onların tək istəyi, tək amalı erməni işğalçılarını torpaqlarımızdan qovub çıxartmaq və xalqımıza əmin-amanlıq, firavan həyat bəxş etməkdir.



... Qızmar yayın səhər mehi ağacların yarpağını xəfifcə əsdirir. Yol boyu yaşıllığa qərq olmuş bağça-bağlarda, uzandıqca uzanan taxıl zəmilərində çalışan insanlarımızın əməksevərliyi, işgüzarlığı bizə xoş ovqat bəxş edir. O anda fikirləşirsən ki, Azərbaycanımızın necə zəngin təbiəti, necə barlı-bərəkətli torpaqları var. Neçə illərdir ki, erməni qəsbkarları cəbhə xəttində yerləşən bu ərazilərin sakitliyinə qənim kəsilib. Düşmən təkcə döyüş mövqelərimizi deyil, dinc əhalimizi, yaşayış məntəqələrimizi atəşə tutmaqdan çəkinmir, insanları səksəkə, qorxu altında saxlamağa cəhd göstərir.

Səngər yolu Vətən yoludur. Hər səngər bir qaladır. Bu gün o səngərlərdə Cavanşir, Babək, Xətai, Cavadxan, Mehdi, Həzi, Mübariz, Fərid, Murad, Samid ruhlu mərd oğullar Vətənimizin - doğma Azərbaycanımızın müdafiəsində igidliklə dayanaraq qəhrəmanlıq ənənələrimizi yaşadırlar. İllərdir o səngərlərdə xalqımızın cəsur övladları düşmənin gün ərzində dəfələrlə açılan atəş nöqtələrini susdururlar. Bu gün o səngərlərdə xalqımızın qəhrəmanlıq ənənələrini yaşadan igid oğulları qüdrətli Azərbaycan Ordusunun uğurlu aprel döyüşlərindən, Günnüt əməliyyatından daha da ruhlanaraq Vətənin müdafiəsində əzmlə dayanıblar.

...Maşın torpaq yolla irəliləyir. Artıq müşahidə zolağına yaxınlaşırıq. Nəhayət, ana Vətənin gecə-gündüz keşiyini çəkən xalqımızın mərd, cəsur övladlarının görüşünə gəlib çıxırıq. Düşmənlə üzbəüz barmağı daim tətikdə olan ölməz Mübarizin dağ vüqarlı silahdaşları gəlişimizə sevinirlər. Onlara baxdıqca qürur, fəxr hissi keçiririk. Biz ön xəttə daxil olanda bir qrup hərbçi səngərdə zəruri tədbirlər həyata keçirirdi. Döyüş növbəsi aparan əsgərlər də öz mövqelərində möhkəm dayanaraq düşməni izləyirdilər. Digər əsgərlər isə xidmət yerlərində sıraya düzülərək komandirlərinin növbəti əmrlərini gözləyirdilər. Yəqin ki, bir azdan döyüş növbəsinə hazırlaşan əsgərlər təlimatlandırılaraq müşahidə məntəqəsinə yollanacaqlar.

Səngər yolu çınqıl daşlarla döşənib. Şəxsi heyətin məişət qayğıları ilə maraqlanırıq. Postda yaradılan kiçik əsgər yataqxanasında səliqə-sahman, təmizlik ürəkaçandır. Rəfdə düzülmüş kitablar, divardan asılan Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şəkli diqqətimi çəkir. Öyrənirəm ki, burada əsgərlər asudə vaxtlarında kitab oxumağı xoşlayırlar. İnanırıq ki, milli dəyərlərimizi yaşadan, ata-babalarımızın, əcdadlarımızın qəhrəmanlıq ənənələrini örnək hesab edən hərbçilərimiz tezliklə torpaqlarımızı erməni işğalçılarından azad edəcək, şəhidlərimizin qisasını alacaqlar.

Günün nizam qaydalarını pozmadan hərbçilərimizlə söhbətə başlayırıq. Döyüş növbətçiliyi necə aparılır? sualımızı cavablandıran bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini leytenant Nurlan Əliyev bildirir ki, sakitlikdir. "Düşmən tərəfimizdən ayıq-sayıqlıqla izlənilir. Müşahidə məntəqəsində düşmənin bir hərəkətini belə gözdən qaçırmırıq, daima nəzarətimiz altında saxlayırıq. Düşmən heç bir fəaliyyət göstərə bilmir. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Qeyd edim ki, əsgərdə mənəvi-psixoloji hazırlıq yetərincə olmasa, o, döyüş hazırlığına da tam yiyələnə bilməz. Bu amillər bir-birini tamamlamalıdır. Biz bu gün bütün hazırlıqlarımızı müharibə qanunlarına uyğun olaraq qurur və düşmənlə üzbəüz mövqelərdə xidmət apardığımızı yaddan çıxartmırıq. "

Sonra müşahidə məntəqəsində döyüş növbəsi aparan əsgərlərə yaxınlaşırıq. Bu gənclərə baxdıqca qəlbimiz dağa dönür. Düşmən tərəfi müşahidə edən əsgərin qorxmazlığı, cəsarəti, mərdliyi, igidliyi bizi düşündürür: bu əsgər ölümün də gözünə beləcə dik baxar. Onu nə düşmən gülləsi, nə də atəş səsləri qorxudar. Bax, beləcə Ana, Vətən, Torpaq uğrunda şəhid olmağa hər an hazırdır qəhrəman Azərbaycan əsgəri!

Həmsöhbətim leytenant Elşad Mirzəyev Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu olduğunu deyir: "Aprel döyüşləri zamanı "N" hərbi hissəsində rabitəçi vəzifəsində xidmət edirdim. Aprel şəhidi Tural Dadaşovla 4 il bir yerdə təhsil almışıq. Hərbi xidmət müddətində də bir yerdə qulluq edirdik. O, çox vətənpərvər oğul idi. Erməni qaniçənlərinin Qarabağda törətdikləri vəhşiliklərdən danışanda qaşları çatılar, yumruqlarını düyünləyər, onlardan qisasımızı almalıyıq deyərdi. Aprel döyüşlərindən sonra hərbi xidmətimi başa vurub zabit kimi ordu sıralarına daxil olub Vətənimizin müdafiəsinə, torpaqlarımızın azadlığı uğrunda döyüşlərə hər an hazır olacağıma and içdim."



Gizir Məhəbbət Şahməmmədov isə tariximizə nəzər salaraq, mənfur ermənilərin məqam düşdükcə xarici havadarlarının dəstəyi ilə xalqımızın başına gətirdikləri bəlalardan, müsibətlərdən söhbət açır. Bildirir ki, vaxtaşırı tabeliyində olan şəxsi heyətə erməni vandallarının törətdiyi faciələrdən, terror aktlarından, XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımından danışmağı özünə borc bilir.

- Biz tariximizin qan yaddaşını unutmamalıyıq, - gizir deyir. - Hazırda torpaqlarımızın 20 faizi erməni qəsbkarlarının işğalı altındadır. Lakin özlərini dünyaya məzlum millət kimi nümayiş etdirən ermənilər bu arzularını heç vaxt gerçəkləşdirə bilməyəcəklər.

Söhbətimi döyüş növbəsi aparan əsgər Anar Əliyevlə davam etdirirəm. Öyrənirəm ki, Anar əslən Astara rayonundandır. Vətənə övladlıq borcunu ləyaqətlə yerinə yetirir. O, silahlardan istifadə qaydalarını çox yaxşı bilir. Düşmənin atəş mövqelərinin susdurulmasında fəallıq göstərib. Barmağı tətikdə, gözləri düşmənin mövqelərini dəqiqliklə izləməkdə olan igid əsgər torpaqlarımızın müdafiəsinə həmişə hazır olduğunu söyləyir.

Digər döyüş növbəsində olan əsgər Hikmət Qasımov düşmən mövqelərini müşahidə edir. Manqa komandiri olan Hikmət Zaqatala rayonundan hərbi xidmətə çağırılıb. O pulemyotçu kimi döyüş növbətçiliyini həmişə uğurla aparıb. Özünün dediyi kimi, hələ orta məktəb illərindən ibtidai hərbi hazırlığa böyük maraq göstərib. Silahlardan istifadə qaydalarını ibtidai hərbi hazırlıq dərslərində mənimsəyən Hikmət bu gün düşmənlə mövqedə əzmlə dayanıb, barmaqlarını tətikdən çəkmir.

Əsgər Emil Nuriyev isə təlimlərdə qazandığı bilik və təcrübəsindən danışır:

- Belə bir deyim var: təlimdə tər tökməsən, döyüşdə qələbə qazana bilməzsən. Bu gün silahlardan bacarıqla istifadə edə bilməyimizdə komandirlərimizin böyük zəhməti var. Hər addımda onların diqqət və qayğılarını hiss edirik.

Əsgərlərdən İman İmanov, İsmayıl Tomarov, Aqşin Mirzəyev, Fərhad Məmmədov hazırda ön xətdə xidmətlərini davam etdirirlər. Onlar səngərdə bir amal, bir məqsəd üçün birləşirlər - yalnız Vətənin bütövlüyünə, torpaqlarımızın azadlığına və düşmən üzərində Böyük Qələbəyə nail olmaq!..

Cəbhə xəttində şərəflə xidmət edən hərbçilərimizə "Allah sizləri qorusun, Vətənin mərd oğulları. Vətən torpağı sizə əmanətdir", - deyib onlarla sağollaşırıq.

Yenə də yolumuz növbəti döyüş postuna - ana Vətənin qəhrəman müdafiəçilərinin qərar tutduğu digər məkanadır...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Hərbi hissələrdə Qurban bayramı təntənə ilə qeyd edildi

*İslam aləmində müqəddəs sayılan günlərdən biri də Qurban bayramıdır. Saflıq və mərhəmət rəmzi olan Qurban bayramı insanları halallığa, paklığa səsləyir. Milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsi olan Qurban bayramı ilə əlaqədar Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində Qurban bayramı münasibətilə tədbirlər keçirildi. Keçirilən tədbirlərdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Bayram tədbirlərində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qurban bayramı münasibətilə təbrikləri çatdırıldı, şəxsi heyətin iştirakı ilə qurbanlar kəsildi.*





Müqəddəs Qurban bayramı münasibətilə "N" hərbi hissəsində də tədbir keçirildi. Polkovnik-leytenant Əhməd Abdullayev şəxsi heyəti bayram münasibətilə təbrik etdi. Onlara bu günün əhəmiyyətindən danışan zabit bildirdi ki, Qurban bayramı İslam aləminin ən möhtəşəm və müqəddəs bayramıdır, dərin tarixə malikdir və hər il dünya müsəlmanları tərəfindən qeyd edilir. "Xeyirxahlığın, insanpərvərliyin, bərabərliyin rəmzi olan bu bayram insanları həmrəyliyə, qardaşlığa dəvət edən bir bayramdır. Bu bayram özü ilə hamıya saflıq, təmizlik gətirir. İnsanları halallığa, paklığa səsləyir. Ölkəmizdə də təmtəraqla qeyd edilən Qurban bayramında hər il qurbanlar kəsilir. Həmçinin bu bayramda torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin də xatirəsi yad edilir. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısının nəticəsidir ki, hər il kəsilən qurbanlardan şəhid ailələri üçün də pay ayrılır. Bir daha hamınızın bayramını təbrik edir, xidmətlərinizdə uğurlar arzulayıram. "

Polkovnik Əli Quliyev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və birlik komandiri general-leytenant Rövşən Əkbərovun təbrik məktubunu şəxsi heyətə çatdırdı. Şəxsi heyətə ünvanlanan məktublarda vurğulanırdı ki, Ulu Öndərin təməlini qoyduğu müdrik siyasətin nəticəsidir ki, dostluq, halallıq, bərabərlik və mərhəmət kimi yüksək əxlaqi dəyərlər aşılayan, bu günə qədər yaşadılan Qurban bayramı ölkəmizdə də yüksək səviyyədə qeyd edilir.

* * *

Ənənəyə uyğun olaraq "N" hərbi hissəsində də Qurban bayramı münasibətilə tədbir keçirildi.

Tədbirdə çıxış edən polkovnik Ədalət Hacıyev şəxsi heyəti əlamətdar gün münasibətilə təbrik etdi. Zabit Qurban bayramının əhəmiyyətindən söz açaraq bildirdi: "Bu gün bütün müsəlman dünyası, o cümlədən də Azərbaycan xalqı müqəddəs Qurban bayramını böyük təntənə ilə qeyd edir. Minilliklərin süzgəcindən keçib gələn milli və dini bayramlarımızın içərisində Qurban bayramı özünəməxsus tərbiyəvi xüsusiyyətləri ilə seçilib. Bu bayramın mahiyyəti sadəcə qurban kəsməkdən ibarət deyil. İnsanları mənəvi saflığa, əxlaqi dəyərlərə, xeyirxah əməllərə səsləməkdir. Əziz gündə xatırlatmaq istəyirəm ki, hər bir hərbi qulluqçu Vətən uğrunda, doğma torpaqlarımızın ərazi bütövlüyü uğrunda, haqq yolunda canını qurban verməyə hazır olmalıdır. Bizlər torpaqlarımızın işğaldan azad edilməsi kimi böyük haqq yolunda canımızdan keçməyi şərəf bilməliyik. Əziz əsgərlər, çavuşlar, gizirlər və zabitlər. Sizləri müqəddəs Qurban bayramı münasibətilə təbrik edir, can sağlığı, mənalı ömür və haqq işimiz uğrunda mübarizəyə hazır olmağı arzulayıram".

Tədbir konsert proqramı ilə sona çatdı.



* * *

"N" hərbi hissəsində də müqəddəs Qurban bayramı münasibətilə bayram şənliyi keçirildi.

Tədbirdə əsgər valideynləri, məktəblilər və ictimaiyyət nümayəndələri iştirak edirdi.

Hərbi hissənin zabiti polkovnik Mehman Kərimov ölkə rəhbərliyi tərəfindən ordu quruculuğu istiqamətində aparılan işlərdən, hərbi hissənin şəxsi heyətinin döyüş hazırlığında əldə etdikləri uğurlardan danışdı. "Bu gün İslam aləmində saflığın, mərhəmətin, xeyirxahlığın rəmzi olan Qurban bayramını qeyd edirik. Bu müqəddəs bayram münasibəti ilə hər bir azərbaycanlını səmimi qəlbdən təbrik edir, sərhədlərdə dayanan qardaşlarımıza çətin və şərəfli xidmətlərinin yerinə yetirilməsində müvəffəqiyyətlər arzulayıram. Hər birimizin bir arzusu var - işğal altında olan torpaqlarımızı ermənı qəsbkarlarının tapdağından azad etmək, doğma yurd-yuvalarından didərgin düşən soydaşlarımızı el-obalarına qaytarmaq və şəhidlərimizin qisasını almaq. Hərbçi olaraq bu amala çatmaq üçün əlimizdən gələni əsirgəmirik. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun aprel döyüşlərində və Günnüt zəfərində əldə etdiyi nailiyyətlər bütün dünyaya bir daha sübut edir ki, ərazi bütövlüyümüzü bərpa edəcəyimiz günə çox az qalıb".

- Doğma Vətəni müdafiə etmək, torpaqlarımızı qorumaq ilk öncə biz hərbçilərin müqəddəs borcudur. Azərbaycan ailələrində övladlarımız məhz milli ruhda tərbiyə olunmalıdır. Qurban bayramı cəmiyyətimizin milli-mənəvi ruhda tərbiyə olunması baxımından böyük mənəvi-psixoloji təsirə malikdir. Qurban bayramının digər üstünlüyü insanları birliyə dəvət etməsidir. Tanrı yolunda kəsilən qurbanlar əlillərə, ehtiyacı olan ailələrə paylanılır və hər bir insan vahid cəmiyyətin üzvü olduğunu, cəmiyyət tərəfindən unudulmadığını dərk edir. Milli-dini birliyin dərk edilməsi, vacibliyi və əhəmiyyəti bu bayramda öz əksini tapır,- deyə hərbi hissənin zabiti polkovnik-leytenant Rəşid Tinayev qeyd etdi.

Çıxışlardan sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu qiymətli hədiyyələr ilə mükafatlandırıldı.

Hərbi hissədə yaradılan şəraitlə tanış olan əsgər atası Adil Abdulzadə ordu rəhbərliyinə öz minnətdarlığını bildirdi. "Oğlum Kənanın hərbi xidmətə gəldiyi gün heç vaxt yadımdan çıxmaz. Həmişə onun qidalanmasından narahat idim. Bu gün yeməklərin xanım aşpazlar tərəfindən bişirildiyinin şahidi oldum. Çox sevinirəm ki, oğullarımız əmin əllərdədir. Cənab Prezident İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova övladlarımıza göstərdiyi qayğı və diqqətə görə öz minnətdarlığımı bildirirəm".

Daha sonra Sumqayıt şəhəri Cəfər Cabbarlı adına Mədəniyyət Evi ilə birgə Corat qəsəbəsinin Mədəniyyət Evinin Mahnı və Rəqs Ansamblının solistləri tədbir iştirakçılarının qarşısında konsert proqramı ilə çıxış etdilər.

Sonda tədbir iştirakçıları və əsgərlər bayram süfrəsi arxasına keçərək birgə nahar etdilər.

* * *

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də Qurban bayramı münasibəti ilə tədbir keçirildi. Hərbi liseyin rəisinin maddi-texniki təminat üzrə müavini polkovnik Nazim Abbasov şəxsi heyəti bayram münasibəti ilə təbrik etdi, onlara xidmətlərində uğurlar arzuladı. Zabit qeyd etdi ki, Qurban bayramı hamımız üçün müqəddəs və əzizdir. Hər bir azərbaycanlı bu bayramı doğma ocağında qeyd edir. Sevincli anlarını yaşadığımız bu bayram hamıya yüksək bəşəri dəyərlər aşılayır. Dövlət müstəqilliyimizin bərpasından sonra bu bayramın rəsmi şəkildə qeyd edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin ən bariz ifadəsidir. Bu əziz gündə arzularımız çoxdur. Ən böyük arzu və istəyimiz işğal altında olan torpaqlarımızın tez bir zamanda erməni qəsbkarlarından azad edilməsi və doğma ocaqlarından didərgin düşən insanların öz dədə-baba yurduna qayıtmasıdır. Bu gün ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuz gündən-günə gücünü, qüdrətini artırır, yeni-yeni hərbi hissə və birləşmələr tikilib istifadəyə verilir, ən müasir zirehli texnika və silahlarla təmin edilir. Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin yaranmasının 100 illiyi ilə əlaqədar keçirilən təntənəli hərbi parad ordumuzun daim artan gücünü, qüdrətini bir daha dünyaya göstərdi. Biz hər birimiz ordumuzla fəxr edir və qürur duyuruq. İnanırıq ki, gün gələcək biz növbəti Qurban bayramlarımızı daha böyük qələbə və zəfərlərlə qeyd edəcəyik.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU



Döyüş hazırlığı

# İstənilən tapşırığı yerinə yetirməyə hazırıq

Dünyanın aparıcı orduları sırasında olan Azərbaycan Ordusu bu gün istər silah-sursatına, istərsə də şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığına görə istənilən tapşırığı yerinə yetirmək iqtidarındadır. Ordumuzun bu səviyyəyə gəlməsi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və ordu rəhbərliyinin diqqət və qayğısının nəticəsidir. Bu gün şəxsi heyət üçün hər bir şərait yaradılıb. Yeni hərbi hissələr tikilib, bir çoxu yenidən təmir olunub, zabitlərin yaşayışı üçün şəhərciklər salınıb və digər vacib əhəmiyyətli işlər görülüb. İndi hərbi qulluqçularımızı sadəcə döyüşə hazır olmaq və işğalda olan torpaqlarımızı düşməndən azad etmək tapşırığı maraqlandırır. Bu tapşırığı da icra etmək üçün şəxsi heyətin qarşısına müəyyən tələblər qoyulub - dərslərdə fəal iştirak etmək və döyüş hazırlığını yüksək səviyyədə saxlamaq.

Hərbi hissələrdə olarkən əsgərlərin döyüş tapşırığını necə icra etdiyinin tez-tez şahidi oluruq. Ön xətdə yerləşən bölmələrimizdə olduğu kimi, arxa xətdəki bölmələrimizdə də şəxsi heyət daim döyüş hazırlığı ilə məşğul olur. Döyüş əzmində olan və torpaqlarımızı işğaldan azad etmək arzusu ilə alışıb-yanan əsgərlərimizi görəndə Ümummilli Liderimizin bir kəlamını xatırlayıram - "Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var. ...Bizim ordumuz indi Azərbaycan torpağını qorumağa və Azərbaycana qarşı hər bir hərbi təcavüzün qarşısını almağa qadirdir".

"N" hərbi hissəsindəyik. Təlim meydançasında bir manqanın dərs prosesini izləmək imkanı qazanırıq. Taqım komandirinin əmrinə əsasən əsgərlər manqa hücumda tapşırığını icra edirdilər. Bir kalonda irəliləyən əsgərlər zəncirvari döyüş düzülüşünə açıldıqca, taqım komandirinin "Döyüşə" komandasını icra etdikcə bir anlıq aprel döyüşləri yadıma düşür. Həmin döyüşlərdə də igidlərimiz verilən tapşırıqları vaxtında və komandalar şəklində icra etdikləri üçün döyüşün qalibi olmuşdular. Qəhrəman oğullarımızın şücaətinin nəticəsidir ki, Bayraqtəpədə, Lələtəpədə üçrəngli bayrağımız dalğalanır. Taqım komandirinin "İrəli" komandası məni xəyallarımdan ayırır. İlk həmsöhbətim leytenant Mais Əsgərov olur. Gənc zabit bildirir ki, təhsil aldığı illərdə qarşısına qoyduğu bir məqsəd olub - müəllimlərin tədris etdiyi fənləri dərindən mənimsəmək və xidmətə başlayanda tabeliyindəkilərə öyrətmək. "Hər gün məşğələyə çıxmamışdan öncə dərsin mahiyyətini və vacibliyini əsgərlərə başa salıram. Gənc əsgərlərimiz də yaxşı bilirlər ki, torpaqlarımızın bir qismi işğal altındadır. Nə qədər sülhsevər bir millət olsaq da vaxtı çatanda döyüş gücümüzdən istifadə edəcəyik. Düşmən bilsin ki, ordumuz daim Ali Baş Komandanımızın əmrini gözləyir və istənilən an torpaqlarımızın azadlığı üçün döyüşlərə atılmağa hazırdır."

Leytenant Mais Əsgərov onu da vurğuladı ki, dərslərdə və döyüşlərdə manqa komandirlərinin rolu danılmazdır. Döyüş tapşırığını icra edərkən ən sonuncu onlara komanda verilir. Manqa komandirləri şəxsi heyətlə birlikdə irəliləyir və onlarla birbaşa ünsiyyətdə olurlar.

"Əsgəri döyüşdə idarə etmək manqa komandirinin əsas vəzifəsidir", - deyə kiçik çavuş Siyavuş Xudaverdiyev söhbətə qoşulur. - Yuxarı komandanlığın döyüş tapşırıqlarının vaxtında və düzgün yerinə yetirilməsi hər birimizdən yüksək nəzəri-hərbi bilik tələb edir. Odur ki, döyüşdə uğur qazanmaq üçün müasir silahlara malik olmaqla yanaşı, bu silahları idarə edən bacarıqlı əsgərlərin də olması vacib şərtdir. Hər birimiz üzərimizə düşən vəzifə borcunun fərqindəyik. Gündəlik dərslərdə şəxsi heyətə arsenalımızda olan silah-texnikanı öyrətməklə bərabər, onların hər birinin döyüşdə istifadə qaydasını da başa salırıq. Əsgərlər məşğələlərdə öyrədilənləri diqqətlə dinləyir və praktiki yerinə yetirirlər. Əminliklə deyə bilərik ki, ordumuz bu gün qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək peşəkarlıqla yerinə yetirməyə qadirdir.

Məlum olduğu kimi, hər manqanın tərkibində sanitar-atıcı olur. Onun əsas vəzifəsi yaralanan əsgər yoldaşlarına ilkin tibbi yardım göstərmək və dərhal döyüş meydanından təxliyə etməkdir. Bu vəzifədə xidmət edən əsgər Etibar Məmmədovla da söhbət etmək imkanı tapırıq. Əsgər E.Məmmədov müəyyən olunmuş vaxtlarda tibb məntəqəsində ilkin yardımla bağlı dərslərin keçirildiyini qeyd etdi. "Təyin olunmuş vaxtlarda bacarıqlı həkimlərimizin rəhbərliyi altında ixtisasımıza uyğun dərslər keçirilir. Əlbəttə, döyüşdə əsgər yoldaşını itirməyi heç kim istəməz. Ancaq bu bəzən qaçılmaz olur. Bizim əsas məqsədimiz döyüş vaxtı yaralanan hər bir yoldaşımıza ilkin tibbi yardım göstərərək onu ən yaxın məntəqəyə çatdırmaqdır. Bugünkü dərsdə də manqa hücumda olan zaman yaranacaq hər bir vəziyyətdən çıxış yolunu öyrənirik. Komandirlərimiz bizə lazım olan bütün məşğələləri keçirlər. Biz döyüş əmrini icra etməyə hazırıq. Ali Baş Komandanımızın döyüş əmrini yerinə yetirmək, üçrəngli bayrağımızı Qarabağımıza sancmaq üçün səbirsizlənirik."



Söhbətimizdən də məlum olur ki, Azərbaycan əsgəri artıq öz torpaqlarına qayıtmaq üçün tələsir. Əsgər Etibar Məmmədovun sözlərinə qoşulan Vasif Həmidov, Emin Məmmədov, Nəsimi Əhmədov, Əlihüseyn Babayev, Nəsib Ələkbərov, Ahur Qurbanov da məşğələlərdə öyrəndiklərini döyüş meydanında düşmənə qarşı tətbiq etməyə hazır olduqlarını bildirdilər. "Biz hərbi qulluqçular istənilən tapşırığı icra etməyə hazırıq!".

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*24 avqust 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 86 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan və İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Kəngərli, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Rabitədə daim fasiləsiz əlaqə olmalıdır"

Bu gün dünyada baş verən texniki tərəqqi, elmi kəşflər, ixtiralar, kommunikasiya və rabitə sistemindəki sürətli inkişaf xalqları, bəşər övladını bir-birinə yaxınlaşdırmağa, onları sıx birləşdirməyə xidmət edir. Cəmiyyəti daim inkişafa aparan rabitə sahəsində hər gün, hər saat yenilik var. Müasir dünyamızı rabitəsiz təsəvvür etmək olmaz. Bəs günü-gündən müasirləşən rabitə müharibə şəraitində olan ordumuzda necə təşkil olunur? Ordumuzda mükəmməl rabitə təminatının yaradılması və daim onun yenilənməsi diqqət mərkəzindədir. Döyüş aparan ordunun qələbəsinin təmin edilməsində rabitənin rolunu nəzərə alan rəhbərlik onun dayanıqlı, keyfiyyətli və etibarlı rabitə ilə təminatına xüsusi diqqət yetirir. Davamlı rabitə döyüş hazırlığında vacib şərtdir. Burada fasiləsiz əlaqələrin qurulması rabitənin üzərinə düşür. Ərazinin relyefinin hərtərəfli öyrənilməsi peşəkar rabitəçinin əsas fəaliyyət prinsipi sayılır.



Ezamiyyətdə olduğumuz zaman ön xətdə yerləşən "N" hərbi hissənin rabitə xidmətinin təşkili ilə maraqlanırıq. Rabitə otağına daxil olarkən gərgin iş prosesinin şahidi olduq. Əsgər Kamil Babayev rabitə qurğusunu nizamlayır, gələn zənglərə cavab verir və operativ əlaqə yaradırdı. Qurğunu böyük həvəslə idarə edən əsgər deyir ki, əgər sevdiyin sənətlə məşğul olursansa, o zaman özünü təsdiqləyəcəksən. "Mənim də rabitəçi peşəsinə dərin marağım olub. Şamaxı rayonundan hərbi xidmətə çağırılmışam. Ali təhsilliyəm. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunuyam. Fikrimcə, peşəkar rabitəçi texniki elmlərdən xəbərdar olmalı və texnikada nasazlıq yarandığı zaman onu bərpa etməyi bacarmalıdır. Təcrübə göstərir ki, müasir texnologiyanı bilən şəxs rabitəni heç bir çətinlik çəkmədən asanlıqla idarə edəcək."

"Rabitədə daim fasiləsiz əlaqə olmalıdır", - deyən əsgər Kamil Babayev bu peşənin özünəməxsus sirləri olduğunu da diqqətə çatdırır: "Məsuliyyətlə çalışmalı, bütün diqqətin, fikrin gördüyün işin üzərində cəmlənməlidir. Mən də bu sənətin sirlərini təcrübəli rabitəçilərdən öyrənmişəm. Rabitə bölüyündə xidmət edən hər bir əsgər orduda rabitənin əhəmiyyətini dərindən başa düşməlidir".

Hərbi hissənin rabitə xidmətindən bizə onu da bildirdilər ki, bu sahədə işlər peşəkarlar tərəfindən uğurla aparılır. Rabitə qurğuları və avadanlıqları hər zaman saz və işlək vəziyyətdədir. İstismar müddəti başa çatmış, köhnəlmiş texniki qurğular daha müasirləri ilə əvəz olunur. Müharibə şəraitində operativ şəkildə arxa cəbhə ilə rabitənin yaradılması ön xətdə şəxsi heyətin hərtərəfli təminatının yüksək göstəricisidir. Bütün bu üstünlüklər onu deməyə əsas verir ki, rabitə ağır işin asanlaşmasına və zaman tələb edən işin operativ şəkildə həyata keçməsinə xidmət göstərir. Rabitə sistemində nasazlıq yaranarsa, xidmətdə işin səviyyəsi mütləq aşağı düşər. Bu zaman peşəkarların səyi nəticəsində rabitə dayanıqlı təmin olunur və xidmət davam edir. Bəzi ərazilərdə relyefdən və hava şəraitindən asılı olaraq telefon xətlərində nasazlıq baş verərsə də, bu tez bir zamanda aradan qaldırılır.

Şahidi olduqlarımız deməyə əsas verir ki, düşmənlə təmas xəttində ordumuzun rabitə sistemi çox güclüdür. İnanırıq ki, ordumuz tezliklə səbirsizliklə gözlədiyimiz Böyük Qələbəni təmin edəcək və ilk olaraq rabitəçilərimiz tarixi zəfəri şəxsi heyətə, Azərbaycan xalqına çatdıracaq!

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Füzulililər doğma torpaqlarının işğal altında qalması ilə heç vaxt barışmayacaqlar

*Azərbaycanın füsunkar guşələrindən olan Füzulinin erməni təcavüzkarları tərəfindən işğalının 25-ci ildönümü ilə əlaqədar Horadiz şəhərindəki Qəhrəmanlar parkında anım mərasimi keçirilib.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Qəhrəmanlar parkında füzulili Milli qəhrəmanların abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar. Rayon ictimaiyyətinin, o cümlədən ağsaqqalların, əmək kollektivlərinin nümayəndələrinin, Qarabağ müharibəsi veteranlarının, şəhid ailələrinin üzvlərinin, ərazidəki “N” hərbi hissənin əsgər və zabitlərinin iştirak etdikləri tədbirdə çıxış edən Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətindən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrindən, müharibənin ölkəmizə vurduğu ziyandan söz açıb. Bildirilib ki, 1993-cü il avqustun 23-də Füzuli şəhəri Horadiz qəsəbəsi və rayonun 82 kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Müharibə zamanı rayon sakinlərindən 657 nəfər şəhid olub, 181 nəfər əsir və itkin düşüb, 400 nəfər sağlamlığını itirərək əlilə çevrilib. Torpaqlarımızın müdafiəsi uğrunda fədakarlıq göstərmiş füzulililərdən 6 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Diqqətə çatdırılıb ki, 1994-cü ilin yanvarında Azərbaycan Ordusunun apardığı uğurlu əməliyyat nəticəsində rayonun 20 kəndi və Horadiz qəsəbəsi işğaldan azad edilib. 1996-cı ildən başlayaraq rayonun işğaldan azad olunmuş ərazilərində infrastrukturun bərpasına başlanılıb. Ötən müddətdə rayon ərazisində məcburi köçkünlər üçün 17 qəsəbə salınıb, işğal zamanı yandırılmış və dağıdılmış evlər, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, yollar, körpülər, elektrik və suvarma sistemləri tikilib və bərpa olunub.



Sonra çıxış edən Milli Məclisin sədrinin müavini Bahar Muradova işğal altındakı torpaqlarımızın azad olunacağına qəti əminliyini ifadə edib. Bildirib ki, Qarabağ müharibəsində ilk qələbələr Horadiz istiqamətində başlanıb. İlk dəfə 1994-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Füzuli istiqamətində 22 yaşayış məntəqəsi işğaldan azad edilib. 2016-cı ilin aprel döyüşləri zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu növbəti qələbə qazanıb. Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi, dövlətimizin başçısının sərəncamları ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən qurulması və kənd sakinlərinin doğma yurdlarına qayıdışı Azərbaycanın bir qarış torpağının belə əsarətdə qalmayacağı ilə bağlı düşmənə ciddi xəbərdarlıqdır. Azərbaycan heç zaman ərazilərinin işğal altında qalması ilə barışmayacaq. Bu gün Lələtəpədə ucaldılan üçrəngli bayrağımız Şuşada, Xankəndidə, Füzulidə və hazırda digər işğal altında olan şəhər və kəndlərimizdə də dalğalanacaqdır.

Çıxışlarda vurğulanıb ki, füzulililər doğma torpaqlarının işğal altında qalması ilə heç vaxt barışmayacaqlar. Onlar Prezident İlham Əliyevin münaqişənin həlli ilə bağlı aparılan danışıqlardakı mövqeyini dəstəkləyirlər. Eyni zamanda, respublikamızın ərazi bütövlüyü uğrunda Ali Baş Komandanın əmri ilə erməni faşistlərinə qarşı silaha sarılmağa hər an hazırdırlar.

*Nümunəvi xidmət*

# Məğlubedilməz ordunun əsgəriyəm!

*"N" hərbi hissəsində olduğumuz zaman nümunəvi xidmət rubrikasına yazı hazırlamaq istəyimizi bildirdikdə zabit Əbülfət Xəlilov xidməti vəzifələrinin öhdəsindən layiqincə gələn əsgər Nurid Səlimlini məsləhət gördü. Zabit qeyd etdi ki, o, hərbi hissəyə gəldiyi ilk gündən bacarığı ilə seçilib, əsgər yoldaşlarının və komandirlərinin böyük hörmət və rəğbətini qazanıb. Bir qayda olaraq xidmətinə çox böyük məsuliyyətlə yanaşıb.*



"Qarabağımıza Azərbaycan bayrağını sancanların sırasında olmaq ən böyük arzumdur", - deyə əsgər Nurid Səlimli söhbətə başlayır.

- Vətənə xidmət etmək hamımızın vətəndaşlıq borcudur. Hər birimiz Vətənin keşiyində dayanırıq. Düzdür, biz 18 ay xidmətimizi başa vurduqdan sonra ehtiyata buraxılırıq. Harada olmağımızdan asılı olmayaraq Vətənlə yaşayırıq, Vətən üçün yaşayırıq. Allahın bəxş etdiyi ömrü Vətənə xidmətdə keçirməkdən gözəl bir hiss ola bilməz. Bizim müqəddəs borcumuz Vətənimizin çiçəklənməsinə xidmət etmək, onun hər qarış torpağına sinəmizi sipər edib qorumaqdır. Torpaqlarımızın bir hissəsinin düşmən tapdağında olduğu bir vaxtda Vətən bizdən daha böyük hünərlər gözləyir. Bu gün mən də qanım və canım bahasına olsa belə Vətənimi qorumaq, hər qarışı üçün vuruşmaq amalıyla xidmət edirəm.

- Vətən torpaqlarının keşiyində dayanmaqdan qürur duyuram, - əsgər Səlimli deyir. - Bu gün yurdumuzu qorumaq məsuliyyəti düşüb çiyinlərimizə. Torpaqlarımızın hər qarışı bizim üçün doğma və əzizdir. Qüdrətli Azərbaycan Ordusunun əsgəri olmaq isə qürurvericidir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında regionun ən güclü ordusu formalaşdırılıb. Ordumuzun qüdrəti günü-gündən güclənir. Biz müntəzəm olaraq keçirilən təlimlərdə peşəkarlığımızı daha da artırırıq. Erməni qəsbkarları hər addımda gücümüzü, qüdrətimizi hiss edir. Aprel döyüşlərindən sonra düşmən anladı ki, yenilməz Azərbaycan Ordusu qısa bir vaxt ərzində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edəcəkdir. Aprel zəfərindən sonra ordumuzun ikinci ən böyük qələbəsi Günnüt zəfəri oldu. Belə bir orduda xidmət etdiyim üçün qürurluyam.

Əsgər Nurid Səlimli onu da bildirdi ki, şəxsi heyətin təminatı çox yüksək səviyyədədir. "Yataq dəstlərimiz hər həftə təmizləri ilə əvəz olunur. Həftə sonu camaşırlarımız yığılıb camaşırxanaya təhvil verilir. Müasir standartlara cavab verən yataqxana, yeməkxana, tibb məntəqəsi biz əsgərlərin yüksək səviyyədə xidməti üçün nəzərdə tutulub. Heç nədən korluq çəkmirik. Yaradılan şəraitə görə yuxarı komandanlığımıza minnətdarlığımızı bildiririk. Bir əsgər olaraq üzərimizə düşən vəzifənin məsuliyyətini dərk edirik. İnanırıq ki, işğal altında olan torpaqlarımızı azad edib xalqımıza qələbə sevinci bəxş edəcəyik. O gün isə çox yaxındadır".

**Leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə daha bir təhlükəli terrorçu zərərsizləşdirilib



Türkiyənin Gümüşhane vilayətinin Kürtün rayonunda PKK terror təşkilatına qarşı həyata keçirilən əməliyyatlar zamanı iki terrorçu məhv edilib.

Əməliyyat nəticəsində zərərsizləşdirilən terrorçulardan birinin "Türk Tarık" ləqəbli Barış Öner olduğu bildirilir.

Barış Öner Türkiyənin təhlükəsizlik orqanları tərəfindən ən təhlükəli terrorçular üçün nəzərdə tutulan "qırmızı bülleten"lə axtarışa verilmişdi.

### Ukrayna yeni aviasiya raketini sınaqdan keçirib



Ukrayna yeni istehsal etdiyi "Oskol" 80 millimetrlik kalibrli aviasiya raketini sınaqdan keçirib.

Çerniqov poliqonunda keçirilən sınaqda Mi-8 helikopteri 300 ədəd PC-80 "Oskol" aviasiya raketinin atışını həyata keçirib.

Üç günlük sınaq müddətində raketin Mi-8 helikopterində istifadəsi üçün onun taktiki-texniki imkanlarının məqsədəuyğun olduğu müəyyənləşib.

### İsveçin hərbi hava qüvvələrinə məxsus qırıcı təyyarə quş sürüsü ilə toqquşaraq yerə düşüb



İsveç hərbi hava qüvvələrinə məxsus "Saab JAS 39 Grippen" qırıcı təyyarəsi quş sürüsü ilə toqquşmadan sonra yerə düşüb.

Hadisə ölkənin Ronnebi bələdiyyəsində səhər saatlarında baş verib. Qırıcı təqribən 1000 metr yüksəklikdə qəzaya uğrayıb. Pilot təlimata əsasən qəzadan ciddi zədələnən təyyarəni vaxtında tərk edib.

Qeyd edək ki, "JAS 39 Gripen" İsveçin məşhur aerokosmik şirkəti Saab tərəfindən istehsal edilən dördüncü nəslə aid birmotorlu qırıcı təyyarədir.

### Ermənistan hökuməti söz azadlığını məhdudlaşdıran addım atıb



Ermənistan Nazirlər Kabineti dövlət məmurlarının müsahibə və şərhlərinin, KİV-lərin məlumatlarının hökumətin rəsmi siyasətinə uyğun olmasına dair sərəncam hazırlayıb.

Ölkənin baş nazirinin aparatından hökumət strukturlarına mətbuatla işin nizama salınmasına dair verilən təlimat KİV-lər və sosial şəbəkələrdə ciddi etirazlara səbəb olub. Belə ki, aparat rəhbəri Eduard Ağacanyanın imzaladığı sərəncama əsasən, hökumət üzvlərinin və idarə rəhbərlərinin mətbuata bütün açıqlama, müsahibə və şərhləri "hökumətin proqramı və strateji istiqamətləri ilə üst-üstə düşməlidir".

Bu sərəncamdan sonra baş nazir Nikol Paşinyanın ünvanına söz azadlığının məhdudlaşdırılması ittihamları səslənməyə başlayıb. Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının sədri Armen Aşotyan bildirib ki, baş nazirin aparat rəhbəri söz və mətbuat azadlığını məhdudlaşdırmaqla yanaşı, KİV-lərin operativliyinə və sərbəst ifadə azadlığına zərbə vurur. Baş nazirin mətbuat katibi Arman Yeqoyan onunla razılaşmayaraq bildirib ki, yeni qaydaların məqsədi hökumətin mətbuatla əlaqələrini nizama salmaqdan ibarətdir.

Ermənistanda əvvəllər də dövlət məmurlarının mətbuata bəyanatları ilə bağlı qaydaların sərtləşdirilməsi cəhdləri olub, lakin ilk dəfədir ki, bu addım hökumət sərəncamı ilə rəsmiləşdirilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Düşüncələr*

# Torpağın göz yaşları...



Qəhər də göz yaşıdı, sevinc də. Qəhərin gözlərdən üzdüyü göz yaşları yanaqlarda közə dönür, sevincin üzdüyü dan üzü ləçək üstə şeh gözəlliyindədi. Torpaq da ağrıyır-ağlayır, sevinir-ağlayır. O göz yaşı başqadı, bu göz yaşı başqadı.

Döyüşlər gedəndə də, düşmən atəşkəsi pozanda da torpaq mərmilərlə, qəlpələrlə, güllələrlə yaralanır, torpağın ağrılarını ruhumuzla hiss edirik. Ön xətdə olanda bu ağrıların sızıltısı, giziltisi daha yaxından, daha həssaslıqla hiss olunur. 2015-ci ilin payızında torpağın göz yaşlarını Lələtəpənin bu üzündə görmüşdüm, o üzündə necəliyini güman etmişdim, - orada torpağın göz yaşlarını ruhumun gözləriylə görmüşdüm. Həm kövrək, həm də ağrılı anlar yaşamışdım.

Səttar Bəhlulzadə "Kəpəzin göz yaşları" tablosunu çəkəndə ermənilik baş qaldırmamışdı - hələ qınından çıxmamışdı. Böyük sənət əsəri olan həmin tablonun dediklərini o vaxtlar indiki duyğusallıqla dərk etməmişdim. Dağ da ağlayarmış, daş da, torpaq da. Müharibə başlayalı torpaqların yaralandığını görmüşəm, dağ sinəsi yaralanan - parçalanan dağlar görmüşəm, dağların, torpaqların göz yaşlarını hiss etmişəm; göz yaşlarımın ürəyimə axdığı vaxtlar da olub, üzümdə közə döndüyü vaxtlar da.

2016-cı ilin yazında Lələtəpədə - bu qürurumuzun yüksəkliyinin həndəvərlərində gördüyüm mərmi-qəlpə çuxurları ot göyərdib, otlara mətərislənən çiçəklər göyərdib. Çiçəklərin ahəstəcə titrəyən ləçəklərini şeh bürüyüb. Bu da torpağın göz yaşlarıdı. Çiçəklərin ləçəklərini, torpağın göz yaşlarını 2016-cı ilin aprelindən üzü bu yana Lələtəpədən əsən yellər oxşayır. Çiçəklərin ləçəkləri şehə, şehin mirvari damlalarına darlıq edir. Bir damla düşür, o bir damla düşən damlaya can atır. Sonra başqa biri, başqa biri,... Mənə elə gəlir ki, damlalar - torpağın göz yaşları çiçəklərin yaxasından yapışıb Lələtəpənin o üzünə çəkir. Azərbaycan əsgəri oraları da ermənisizləşdirsin deyə, orada da mərmilərin, qəlpələrin açdığı çuxurlarda da belə otlar, belə çiçəklər boy atsın deyə, torpağın göz yaşları oradakı çuxurlarda da ləçəkləri şeh dolu çiçəklər göyərtsin deyə...

Qıymasaq da, ruhumuzun sıxıntısına dönsə də, torpağın belə göz yaşlarını elə arzulayırıq ki!

Müharibədə əsgərlər işğalı sona yetirmək üçün öz torpağını mərmilərlə, güllələrlə yaralamağa da məcburdu. O anlarda, el arasında deyildiyi kimi, mərmiləri, gülləri atan əsgərlər də, torpağın özü də bağrına daş basır. Doğma ocağından, isti bucağından perikənlərin məhrumiyyətlərini xatırlayan əsgərlər böyük amallarla xidmət etdiyinə görə bunun fərqinə varmır - təki düşmən dövlət sərhədlərimizin o üzünə çəkilsin. Çəkilsin ki, çiçəklərimiz öz nəfəsimizlə ləçəklənsin, ağaclarımız öz əhatəmizdə yarpaqlansın, bulaqlarımızın batmış səsi açılsın, ot basmış yollarımız yolçuların əllərindən yapışsın. Təki göy üzünün göylüyü üzə gülsün. Təki Cocuq Mərcanlılar kimi "Vətənə (doğma yurduma - R.H) gəldim, imana-dinə gəldim" deyənlərimizin şükranlığı gül kimi, çiçək kimi qalib əsgərlərimizin könül xoşluğuna qarışsın. Təki, şair demişkən, "bu Vətən torpağı başdan-başa bayraq olsun" - işğaldan azad edilən torpaqlarımızı qalib əsgərlərimizin qalibiyyətinin təntənəsi olan bayraqlarımız kölgələndirsin. Təki bu qalibiyyəti yaralarına məlhəm bilən torpaqlarımızın gözlərindən Böyük Qələbənin təntənə yaşı dərsin. Təki...

Cocuq Mərcanlıda bu günümüzdən sabahlarımıza düşən işığın rəngini görürəm - Qələbə rəngli işığdı, hamının düşüncələrini nurlandıran, hamımızın könlünü təlləndirən işıqdı.

Cocuq Mərcanlının göz doyduran, könül açan görkəmini gözlərimdən könlümə köçürməkdəykən Abdulla Qurbaninin sözlərinə yazılmış "Lələtəpə fatehləri" mahnısının çılğınlığı, bu çılğınlığın daşıyıcısı olan mətləbin söz-musiqi yozumunu eşidirəm. Ayaq saxlayıram. Bir qədər aralıda 70-80 yaşlı iki ağsaqqalın da ayaq saxladığı diqqətimdən yayınmır; bu bəstə, belə bəstənin ruhu olan şeir deyir ki, Azərbaycan əsgərinin gücü, qüdrəti ilahiliyə söykənir. Bu ilahilik milli-xəlqi ruhdu. Milli-xəlqi ruh isə yaşarıdı, yaşadandı, yaşadılandı...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamıyla yenidən qurulan Cocuq Mərcanlının dünənini - 2015-ci ilin payızını xatırlayıram. Damsız evlərin, divarları uçub dağılmış evlərin, həyətlərində barı-bərəkəti sovulmuş evlərin görkəmi qəlbimi qana döndərmişdi. Lələtəpəyə sarı baxmışdım; marığa yatmış düşmənin qapqara niyyətinin vurnuxduğunu güman etmişdim. Bu ürkəcək gümanları əsgərlərimizin qətiyyətli baxışları çilikləmişdi. 2016-cı ilin aprelində bu baxışlarda Böyük Qələbənin işığını görmüşdüm. O işıq indi daha da gurlaşıb. İndi Cocuq Mərcanlının görkəmindən, Məmməd İlqar demişkən, nə göz doyur, nə könül əl çəkir...

Gələn gəlir, görür, inanır ki, işğalın son nəfəsidi! Ordumuz güclüdü, qüdrətlidi. Bu dönməz inam Azərbaycanımızın sabahlarına inamdı. Bu inam Azərbaycan əsgərinin vətənsevərliyinə inamdı. Torpaqlarımızın alacağı mərmi, güllə yaralarına dözər, işğala dözə bilmir...

Cocuq Mərcanlıya bu bənzərsiz görkəmi 2016-cı ilin aprel döyüşləri, ümidi inama çevirən Qələbə adlı aprel zəfəri verdi. O inam Böyük Qələbənin inamıdı. Belə düşüncələr işğaldan azad ediləcək şəhərlərimizdə, kəndlərimizdə də yaşanılacaq, yaxın vaxtlarda Azərbaycan əsgəri bizə Böyük Qələbənin sevincini yaşadacaq! Səngərlərin o üzündə qalan torpaqlarımızı mərmilərlə, qəlpələrlə yaralasa da yaşadacaq. Onda alacağı yaralar torpaqlarımızı zərrəcə incitməyəcək. Təzə yaralar köhnə yaraların məlhəmi olacaq...

Azərbaycan əsgəri Vətən sevgisiylə ruhumuza yeni bir tablo çəkəcək: "Torpağın göz yaşları". O tablo bəşəriliyin tablosu olacaq...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Hərbi texnikalar, silahlar*

# RPQ-7 qumbaraatanı



Rusiyanın tankəleyhinə əl RPQ-7 qumbaraatanı "QSKB-47" konstruktor bürosunda baş konstruktor V.K.Furulunun başçılığı ilə hazırlanıb və 1961-ci ildə silahlanmaya qəbul edilib. Silah özüyeriyən artilleriya qurğularına, tanklara və digər zirehli texnikalara, aşağı yüksəklikdən uçan hava hədəflərinə qarşı mübarizə aparmaq üçün istifadə edilir. XX əsrin bir çox münaqişələrində istifadə edilib. Tankəleyhinə əl qumbaraatanı RPQ-7 dünyada ən kütləvi silahlardan sayılır. 50-dən çox ölkəyə ixrac olunur. Dünyada ilk aktiv-reaktiv qumbara qurğusu olan qumbaraatandır. Qumbaraatan 40 mm-lik borudan və qol borudan ibarətdir ki, bu da qumbaranın uçuşunu istiqamətləndirmək, zərbəburaxıcı mexanizminin tənzimlənməsinə və barıt qazlarının tullantısına xidmət edir. Səngərdən atəş açmaq üçün qumbaraatana süngünün və optik nişangahın quraşdırılması da mümkündür. Qumbaraatanın çəkisi 6,3 kiloqram, uzunluğu 950 mm, kalibri 40 mm-dir. Onun birbaşa atış uzaqlığı 330 metr, nişangah uzaqlığı 700 metrə qədər, zirehdeşməsi 750 mm, qumbaranın çəkisi isə 2-4,5 kiloqram, ilkin sürəti saniyədə 112-145 metrdir. Qumbaranın əsas hissəsinin kalibri 40-105 mm-dir.



Silahda beş növlü mərmilərdən istifadə edilir (kumulyativ, tandem, termobarik, zirehdeşən-qəlpə, qəlpə). Silahın bir çox növləri də mövcuddur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Futbol üzrə Azərbaycan çempionatının 1-ci divizionunun açılış oyunları keçirilib

23 avqust tarixində futbol üzrə Azərbaycan çempionatının 1-ci divizionunun açılış oyunları keçirilib. Çempionatın açılışında ilk oyun Mərkəzi Ordu İdman Klubu (MOİK) ilə "Sabah-2" futbol klubları arasında oyun baş tutub. MOİK futbol komandası bu görüşdə 1:0 hesabı ilə qalib gəlib. Digər oyunlar isə aşağıdakı kimi nəticələnib. "Qaradağ Lökbatan" - "Neftçi - 2" 0:1; "Kəpəz Gəncə" - "Qarabağ - 2" 0:4, "Zirə-2" - "Sabail - 2" 1:2.

## Azərbaycan batutçuları Batumidə keçirilən beynəlxalq turnirdə üç medal qazanıblar



Batutçularımız Batumidə keçirilən "Ajara Cup" beynəlxalq turnirində uğurla çıxış ediblər.

15-16 yaşlı gimnastların yarışında Selcan Maqsudova 85,100 xalla gümüş medalın sahibi olub.

Həmçinin 11-12 yaşlı oğlanların yarışında isə Hüseyn Abbasov qızıl (89,675 xal), Maqsud Maqsudov bürünc (82,965 xal) medallara layiq görülüblər.

## Karateçimiz beynəlxalq turnirdə bürünc medal qazanıb



İran İslam Respublikasının Urmiya şəhərində 15 ölkədən 320 idmançının iştirak etdiyi karate-do üzrə "Urmiya-Open" XIV Beynəlxalq həmrəylik və dostluq çempionatında millimizin heyətində Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi Aslan İsmayılov da mübarizə aparıb.

4 gün davam edən çempionatda naxçıvanlı idmançı 16-17 yaş qruplarında tatami üzərinə çıxıb. O, beynəlxalq çempionatda 76 kiloqram çəki dərəcəsində bürünc medal qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom, medal və pul mükafatı ilə təltif olunub.

## "Qarabağ" klubu avrokuboklarda növbəti oyununu keçirib



Avqustun 23-də Ağdamın "Qarabağ" klubu futbol üzrə UEFA Avropa Liqasının pley-off mərhələsi çərçivəsində ilk matçında səfərdə Moldovanın "Şerif" komandası ilə qarşılaşıb.

Qarşılaşma ağdamlıların üstünlüyü ilə keçsə də, meydan sahiblərinin futbolçusu Kapiçin səkkizinci dəqiqədə vurduğu qol oyunda yeganə olub (0:1).

Hər iki komanda mübarizəyə Çempionlar Liqasından başlayıb. "Şerif" II təsnifat mərhələsində Makedoniyanın "Şkendiya" klubuna iki oyunun nəticəsinə əsasən məğlub olub (0:0, 0:1).

Azərbaycan və Moldova çempionları ötən mövsüm Çempionlar Liqasının III təsnifat mərhələsində də üz-üzə gəliblər. Həmin vaxt Bakıda qolsuz heç-heçə qeydə alındığı halda, Tiraspolda "Qarabağ" 2:1 hesablı qələbə qazanıb.

Xatırladaq ki, cavab qarşılaşması avqustun 30-da Bakıda keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 528
Nüsxə 3525